**“Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi”nin Tədbirlər Planının 9.3.3. yarımbəndinin (Kəndin sosial-ictimai həyatında qadınların və gənclərin fəal iştirakının təmin edilməsi)**
**İcra vəziyyəti barədə**

## MƏLUMAT

| № | Tədbirin və alt tədbirin adı | İcra müddəti | İcraçı orqanlar | Görülmüş işlər barəsində məlumat |
|---|---|---|---|---|
| **Strateji hədəf 9. Kənd yerlərində məşğulluğun artırılması və əhalinin rifahının yüksəldilməsi** | | | | |
| **9.3.Yerli icmaların kəndin inkişafına dair təşəbbüslərinin dəstəklənməsi** | | | | |
| **9.3.3.** | **Kəndin sosial-ictimai həyatında qadınların və gənclərin fəal iştirakının təmin edilməsi** | 2017-2020 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Gənclər və İdman Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, yerli icra hakimiyyəti orqanları, Tövsiyə edilir: bələdiyyələrə | "Azərbaycan Respublikasının kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strategi Yol Xəritəsi"nin Tədbirlər Planının 9,3,3,-cü yarımbəndi üzrə Azərbaycan respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 23 iyun 2017-ci il tarixli 17020032225 nömrəli əmri ilə Azərbaycan Respublikasının ƏMək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, Gənclər və İdman Nazirliyinin, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin, Bakı şəhəri, Sumqayıt şəhəri və Abşeron rayon İcra Hakimiyyətinin nümayəndələrindən ibarrət İcra İşçi qrupu yaradılmış. İşçi qrupun ilk iclası 2017-ci ilin 11 iyul tarixində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində keçirilmişdir, İclasda "Azərbaycan Respublikasının kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strategi Yol Xəritəsi"nin |

| | | | | |
|---|---|---|---|---|
| | | | | Tədbirlər Planının 9,3,3,-cü yarımbəndinin icrası üzrə Tədbirlər Planının hazırlanması üçün İşçi qrupunun üzvləri tərəfindən verilmiş təkliflər və Tədbirlər Planının ilkin layihəsi geniş müzakirə olundu, Qeyd olunan Tədbirlər Planı rəy və təkilflər nəzərə alınaraq yenidən işlənərək, aidiyyəti üzrə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirlyinə təqdim olundu, |
| **1.** **(9.3.3.1.)** | **Kənd yerlərində ailə, qadın və gənclər siyasətinin dəstəklənməsi, onların ictimai həyatda daha fəal iştirakının təşviq edilməsi** | | | |
| **1.1.** | Ailə institutunun təbliği, qadınların cəmiyyətdə fəallığının və iştirakçılığının artırılması, gənclərin hüquqi biliklərinin və müasir cəmiyyətin inkişafında rolunun artırılması, gənc qızlarda liderlik keyfiyyətlərinin formalaşması məqsədilə yerlərdə özünüidarəetmə orqanlarının imkanlarını nəzərə alaraq, bələdiyyə orqanları ilə birgə “Ailə Akademiyası” layihəsinin həyata keçirilməsi | II ərzində | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, yerli özünüidarəetmə orqanı (bələdiyyələr) | Müasir dövrdə dünyada baş verən qlobal dəyişikliklər və çağırışlar ailə institutuna nəzərəçarpacaq təsir göstərməkdədir. Bununla əlaqədar olaraq, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən dövlət ailə siyasətinin dəstəklənməsi istiqamətində ailə institutunun təbliği, milli-mənəvi dəyərlərin gənc nəsilə aşılanması, eləcə də gənclərin xüsusilə də gənc qızların və qadınların cəmiyyətdə fəallığının və iştirakçılığının artırılması məqsədilə yerlərdə özünüidarəetmə orqanlarının imkanlarını nəzərə alaraq, 2017-ci ildə bələdiyyə orqanları ilə birgə “Ailə Akademiyası” layihəsinə start verilib. Layihə çərçivəsində bələdiyyə orqanlarında keçiriləcək görüşlərdə gənclər, qadınlar, xüsusilə, gənc ailələr, sosial iştirakçılığı zəif olan insanlar |

| | | | | |
|---|---|---|---|---|
| | | | | cəmiyyətdə aktual olan mövzular - “Ailə münasibətlərinin formalaşması”, “Ailə büdcəsinin idarə olunması”, “Gənclərin ailə həyatına hazırlığı”, “Ailə planlaşdırılması”, “Gənclərin hüquq və vəzifələri”, onların “reproduktiv sağlamlıq haqqında biliklərinin təkmilləşdirilməsi”, “Yaşlı nəsil ilə gənc nəslin dialoqu”, “İnternet təhlükəsizliyi” və digər, ətrafında aidiyyatı ekspertlərdən – sosioloq, psixoloq, hüquqşünas, din xadimi, həkim və digər, faydalı məlumatlar əldə edəcək, öz fikir və təkliflərini birbaşa olaraq çatdıra biləcəklər.<br>Layihə çərçivəsində həyata keçirilən tədbirlər:<br>➢ İlk tədbir **7 aprel 2017-ci il** tarixində Binəqədi rayon İcra Hakimiyyəti ilə birgə, rayon üzrə yerli özünüidarəetmə orqanlarının iştirakı ilə Binəqədi rayon Yeni Azərbaycan Partiyası Təşkilatının binasında keçirilib. Tədbirdə Komitə və digər dövlət qurumlarının, yerli özünüidarəetmə orqanlarının nümayəndələri çıxış ediblər. Tədbirdən sonra rayon sakinləri və qonaqların iştirakı ilə Binəqədi Mərkəzi Mədəniyyət Evində Binəqədi qəsəbə Bələdiyyəsinin “Ailə Akademiyası” layihəsi çərçivəsində hazırladığı təlimə baxış keçirilib.<br><br>➢ **14 aprel 2017-ci il** tarixində Suraxanı rayon İcra Hakimiyyəti ilə birgə, rayon üzrə yerli özünüidarəetmə orqanlarının iştirakı ilə Suraxanı rayon Heydər Əliyev Mərkəzində |

| | | | | |
|---|---|---|---|---|
| | | | | tədbir keçirilib. Tədbirdə Komitə və digər dövlət qurumlarının, yerli özünüidarəetmə orqanlarının nümayəndələri çıxış ediblər. Tədbirdən sonra rayon sakinlərinin iştirakı ilə Qaraçuxur qəsəbə Bələdiyyəsi tərəfindən "Ailə Akademiyası" layihəsi çərçivəsində hazırlanan təlimə baxış keçirilib.<br>➢ **12 iyun 2017-ci il tarixində** Saatlı rayon İcra Hakimiyyəti ilə birgə, rayon üzrə yerli özünüidarəetmə orqanlarının iştirakı ilə Saatlı rayon Heydər Əliyev Mərkəzində tədbir keçirilib. Tədbirdə Komitə və digər dövlət qurumlarının, yerli özünüidarəetmə orqanlarının nümayəndələri çıxış ediblər. Tədbirdən sonra rayon sakinləri və qonaqların iştirakı ilə Saatlı şəhər bələdiyyəsi tərəfindən "Ailə Akademiyası" layihəsi çərçivəsində hazırlanan təlimə baxış keçirilib.<br>➢ **31 iyul 2017-ci il tarixində** Hacıqabul rayon İcra Hakimiyyəti və İmişli, Sabirabad, Beyləqan rayonlarının və Şirvan şəhərinin aktiv yerli özünüidarəetmə orqanlarının iştirakı ilə Hacıqabul rayon Heydər Əliyev Mərkəzində tədbir keçirilib. Tədbirdə Komitə və digər dövlət qurumlarının, yerli özünüidarəetmə orqanlarının nümayəndələri çıxış ediblər.<br>➢ **2 avqust 2017-ci il tarixində** Xaçmaz rayon İcra Hakimiyyəti və Quba, Qusar, Xızı, Siyəzən, Şabran rayonlarının aktiv yerli özünüidarəetmə orqanlarının iştirakı ilə Xaçmaz rayon Tarix- |

| | | | | |
|---|---|---|---|---|
| | | | | Diyarşünaslıq Muzeyində tədbir keçirilib. Tədbirdə Komitə və digər dövlət qurumlarının, yerli özünüidarəetmə orqanlarının nümayəndələri çıxış ediblər. “Ailə Akademiyası” layihəsi çərçivəsində keçirilən tədbirlərdə tədbir iştirakçılarına Komitə tərəfindən hazırlanan maarifləndirici çap materialları təqdim edilib. |
| **1.2.** | Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı ilə birgə keçirilən Azərbaycanda “Kənd və rayon yerlərində yaşayan qadınların iqtisadi və sosial həyatda iştirakının təşviqatı” texniki yardım layihəsi çərçivəsində regionlarda kənd qadınlarının məşğulluğunun artırılması məqsədilə onlar üçün maarifləndirici təlimlərin keçirilməsi | Il ərzində | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Yerli İcra Hakimiyyətləri, Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı | 2011-ci ildən Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı ilə birgə icra olunan Azərbaycanda “Kənd və rayon yerlərində yaşayan qadınların iqtisadi və sosial həyatda iştirakının təşviqatı” texniki yardım layihəsi çərçivəsində **2017-ci ildə** layihə 6-7 aprel 2017-ci il tarixlərində Suraxanı Rayonu Heydər Əliyev Mərkəzində bələdiyyə üzvü və icra hakimiyyəti strukturlarında çalışan qadınların iştirakı ilə **“Kənd qadınlarının iqtisadi iştirakı üçün gender faktorunun nəzərə alındığı siyasətlər və proqramlar”** mövzusunda təlim keçirilmişdir.<br>• Qadın hüquqlarının təşviqinin effektiv kampaniyası üçün vəsait hazırlanmışdır.<br>• SEDO (CEDAW) Konvensiyasına əsasən milli öhdəliklərin yerinə yetirilməsinin monitorinqi üçün vəsait hazırlanmışdır və QHTlər üçün təlim keçirilmişdir.<br>• CEDAW Konvensiyasının icraatına dair hesabatın hazırlanması üçün vəsait tərtib olunmuşdur və QHTlər üçün təlim |

| | | | | |
|---|---|---|---|---|
| | | | | keçirilmişdir.<br>• Yanvar ayında Komitə və BMTİP nümayəndələrinin aparıcılığı ilə Masallıda maliyyə savadlılığı və ailə büdcəsinin təşkili mövzularında təlim keçirilmişdir.<br>• Biləsuvar, Sabirabad və Neftçala rayonlarında Qadın Resurs Mərkəzlərinin təşkilati inkişafı üçün növbəti silsilə tədbirlər keçirilmişdir. Sabirabaddakı təlimdə (13-14 fevral) Qadın Resurs Mərkəzinin 17 qadın üzvü, Biləsuvarda (27-28 fevral) 20 qadın və Neftçalada (27-28 mart) 16 qadın üzv iştirak etmişdir.<br>• Biləsuvar və Neftçala QRM üzvlərinin iştirakı ilə iş axtarma, özünü təqdimat, CV-lərin tərtibi və məşğulluğun təmin edilməsinə həsr olunmuş 2-günlük silsilə təlimlər keçirilmişdir.<br>• Biləsuvar, Masallı, Sabirabad və Neftçala Qadın Resurs Mərkəzlərinin üzvləri üçün kompüter bacarıqlarının inkişaf etdirilməsi üzrə silsilə təlimlər keçirilmişdir.<br>• Martın 16-17-də Qadın Resurs Mərkəzlərinin koordinatorları və fəal üzvləri, həmçinin Komitə və BMTİP nümayəndələri Sabirabadda Şəbəkə görüşündə iştirak etmişlər. Şəbəkələşmə tədbiri ərzində QRM üzvlərinin əl işləri Novruz Şənliyi ilə əlaqədar ictimai sərgidə nümayiş olunmuşdur. Görüş ərzində QRM koordinatorları həmçinin sosial mediada düzgün və effektiv fəaliyyət haqqında təlimdə iştirak etmişlər.<br>• Bütün Qadın Resurs Mərkəzləri ictimai |

| | | | | |
|---|---|---|---|---|
| | | | | əhəmiyyətli tədbirlərin keçirilməsini nəzərdə tutan İllik Fəaliyyət Planlarının tərtibi üçün qadın üzvlərin iştirakı ilə interaktiv görüşlər keçirmişlər. Məsələn, Neftçala QRM fevralın 2-də gənc qızların iştirakı ilə ictimai fəal davranış və nümunəvi qadın qəhrəmanlara həsr olunmuş tədbir təşkil etmişdir.<br>• Aprel ayında Suraxanı Rayonu Heydər Əliyev Mərkəzində müxtəlif dövlət qurumları və rayonlardan gəlmiş 20 qadın iştirakçının iştirakı ilə "Dövlət proqramlarının gender həssaslı icraatına" dair 2-günlük təlim keçirilmişdir.<br>• May ayında Salyan rayonunda Qadın Resurs Mərkəzi yaradılmışdır.<br>• Aprel-iyun aylarında Masallı, Sabirabad, Biləsuvar və Neftçalada Qadın Sahibkarlığının İnkişafına dair təlim tədbirləri keçirilmiş, qadınların biznes planlarının seçim turuna start verilmiş,layihədən öz sahibkarlıq fəaliyyətinə dəstək alacaq qaliblər müəyyən olunmuşdur. İyun ayında Salyan rayonunda biznesin inkişafı komponentində iştirak edəcək kəndli qadınların seçimi başlanmışdır. Qadın sahibkarlığının inkişafı üzrə qadınlara konkret maddi dəstək ilin ikinci yarısında göstəriləcək. |
| **1.3.** | ""Yerli" kənd gənclərinə inkişafına dəstək" layihəsinin keçirilməsi | Il ərzində | Gənclər və İdman Nazirliyi, aidiyyəti orqanlar, Gənclər | Proqramın əsas məqsədi kəndlərdə yaşayan gənclərin ictimai həyatda daha fəal iştirakının təşviq edilməsidir. |

| | | | | |
|---|---|---|---|---|
| | | | Təşkilatları Milli Şurası ilə birgə | Proqram çərçivəsində 2017-ci ilin 1-ci yarısında 12 may 2017-ci il tarixdə Şəmkir rayonunun Sabirkənd kəndində “Gələcəyini bu gün qur!”, 19 may 2017-ci il tarixdə Quba rayonunun Məçkə-Xacə kəndində “İntellektual çoxnövçülük üzrə Region kuboku”, 26 may 2017-ci il tarixdə Şəki şəhərinin Aşağı Küngüt kəndində “Regionu gənc bələdçilərlə tanıyaq!”, 7 iyun 2017-ci il tarixdə Sabirabad rayonunun Ulucalı kəndində "Könüllü ol, fərqli ol!", 8-9 iyun 2017-ci il tarixlərdə Astara rayonunun Telman, Lənkəran şəhərinin Sütəmurdov, Cəlilabad rayonunun Privolnoye, Masallı rayonunun Mahmudavar kəndlərində "Erkən nikahlar kontekstində insan alveri" mövzularında təlim və seminarlar keçirilmişdir. Tədbirlərdə 190 gənc iştirak etmişdir.<br>**“Yerli" Kənd Gənclərinin İnkişafı Proqramı çərçivəsində 2017-ci ilin 2-ci yarısında keçiriləcək tədbirlər aşağıdakılardır:**<br>Proqram çərçivəsində kəndlərdə gənclərin inkişafı və maarifləndirilməsi məqsədi ilə Gənclər Təşkilatları Milli Şurasına üzv təşkilatların müraciəti əsasında iyul-dekabr ayları ərzində 10 regionda təlim, seminar, master-class və yarışlar, 24-26 avqust 2017-ci il tarixlərdə 50 gəncin (30 regiondan olan gənclər) iştirakı ilə Kənd Gənclərinin I Forumu, Avropa Şurası tərəfindən həyata keçirilən "Enter! Project - Azerbaijan" layihəsinin Azərbaycana aid |

| | | | | |
|---|---|---|---|---|
| | | | | hissəsində 2017-ci ilin oktyabr ayında Azərbaycanın 1 rayonunda kənd gənclərinin sosial hüquqları, gənclər siyasəti və qərarvericilikdə iştirak mövzuları üzrə təlimlər keçiriləcəkdir. |
| **2.** **(9.3.3.2.)** | **Gənclərin və qadınların kənd yerlərində məşğulluğunun artırılması** | | | |
| **2.1.** | Kənd yerlərində gənclərin mövsumi və ictimai işlərə cəlb olunması üçün əlverişli şəraitin yaradılması | Il ərzində | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, yerli icra hakimiyyəti orqanları | Kənd yerlərində gənclərin mövsümi və ictimai işlərə cəlb olunması üçün əlverişli şəraitin yaradılması istiqamətində bir sıra işlər həyata keçirilmişdir. Cari ilin 7 ayı ərzində 171 nəfər gənc işaxtaran vətəndaş mövsümi xarakter daşıyan haqqı ödənilən ictimai işlərə cəlb olunmuş, 693 nəfər gənc işaxtaran vətəndaş müvəqqəti xarakterli iş yerlərinə göndərilmişdir. |
| **2.2.** | Kənd təsərrüfatı və turizm sahəsində ən çox tələb olunan peşələr üzrə təşkil olunan peşə hazırlığı kurslarına gənclərin və qadınların cəlb edilməsi | Il ərzində | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Təhsil Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Gənclər və İdman Nazirliyi | Kənd təsərrüfatı və turizm sahəsində ən çox tələb olunan peşələr üzrə AZərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən təşkil olunan peşə hazırlığı kurslarına 71 nəfər ofisiant, 128 nəfər xalçaçı, 67 nəfər aşpaz, 40 nəfər traktorçu-maşinçi, 31 nəfər arıçı, 34 nəfər toxucu peşələri üzrə gənclər və qadınlar cəlb olunmuşdur.<br>Gənclər və İdman Nazirliyi tərəfindən rayon və kənd gənclərinin iştirak ilə 20-27 aprel 2017-ci il tarixlərdə Lənkəran şəhəri, Şəmkir, Qusar, Qəbələ, Kürdəmir, Tərtər, Sabirabad rayonlarında “Şahin” hərbi-idman oyununun zona yarışları, gənclərin hərbi xidmətə həvəsləndirilməsi məqsədi ilə 2017-ci ilin may ayında Şamaxı, Ağsu, |

| | | | | |
|---|---|---|---|---|
| | | | | Şabran və Xaçmaz rayonlarında mədəni-kütləvi və təbliğat xarakterli tədbirlər, ”Sağlam gələcək üçün zərərli vərdişlərə qarşı birləşək!” devizi altında maarifləndirici kampaniya çərçivəsində 28 fevral 2017-ci il tarixdə Saatlı, Sabirabad, 3 mart 2017-ci il tarixdə isə Xızı və Abşeron rayonlarında tədbirlər keçirilmişdir.<br>Şəhər və regionlarda yaşayan istedadlı və yaradıcı gənclərin iştirakı ilə 2017-ci ilin iyul ayında “Yaradıcılıq emalatxanası-2” düşərgəsi, iyul-sentyabr aylarında Kompyuter oyunları üzrə XI Azərbaycan Çempionatı, avqust ayında “Breyn-rinq” İntellektual oyunu üzrə Azərbaycan Çempionatı televiziya layihəsi, oktyabr-dekabr aylarında Azərbaycan Gənclərinin VIII Forumunun zona toplantıları, yeniyetmələr arasında “Xəmsə” Milli İntellektual oyunu üzrə V Azərbaycan Çempionatı, noyabr ayında “İstedadların hazırlığı laboratoriyası” V Respublika olimpiadasının yekun mərhələsinin, Gənclər təşkilatlarının (o cümlədən kənd yerlərindən olan) layihələrinin maliyyələşdirilməsi məqsədi ilə müsabiqələrin, “Sağlam gələcək üçün zərərli vərdişlərə qarşı birləşək!” kampaniyası çərçivəsində Göyçay, Ağdaş, Siyəzən və Şabran rayonlarında maarifləndirici tədbirlərin, Qaçqın və məcburi köçkün rayonlarından olan yeniyetmə və gənclərin iştirakı ilə IV Yaradıcılıq festival-müsabiqəsinin keçirilməsi keçirilməsi nəzərdə tutulmuşdur. |

| | | | | |
|---|---|---|---|---|
| 2.3. | Məktəbdən işə keçidin asanlaşdırılması məqsədilə kənd yerlərində gənclərin əmək bazarı ilə bağlı məlumatlılığının artırılması, peşəyönümü tədbirlərinin genişləndirilməsi | Il ərzində | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Təhsil Nazirliyi, yerli icra hakimiyyəti orqanları | Məktəbdən işə keçidin asanlaşdırılması ilə əlaqədar kənd yerlərində gənclərin əmək bazarı ilə bağlı məlumatlılığının artırılması məqsədilə Dövlət Məşğulluq Xidməti orqanları tərəfindən peşəyönümü tədbirlərinin həyata keçirilməsinə xüsüsi önəm verilmişdir. Cari ilin 7 ayı ərzində 53 437 gəncə peşəyönümü məsləhətləri verilmişdir. |
| 2.4. | Gənclərin şəhərə axının qarşısının alınması məqsədilə kənd yerlərində, xüsusilə sərhədyanı və dağ rayonlarda sahibkarlıq (özünüməşğulluq və ailə biznes təsərrüfatının yaradılması) fəaliyyəti ilə məşğul olmaq istəyən gənclərə (o cümlədən gənc qadınlara) məsləhət xidmətlərinin göstərilməsi | Il ərzində | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Gənclər və İdman Nazirliyi, beynəlxalq təşkilatları cəlb etməklə | Gənclərin şəhərə axının qarşısının alması üçün kənd yerlərində, xüsusilə sərhədyanı və dağ rayonlarında sahibkarlıq (özünüməşğulluq və ailə biznes təsərrüfatının yaradılması) fəaliyyəti ilə məşğul olmaq istəyən gənclərə (o cümlədən gənc qadınlara) məsləhət xidmətlərinin göstərilməsi məqsədilə Dövlət Məşğulluq Xidmətinin işçilərindən ibarət işçi qrupu yaradılmış, təbliğat və təşviqat xarakterli broşuralar hazırlanmışdır. |
| 2.5. | Kənd yerlərində qadın və gənclər arasında xalq yaradıcılığı və qədim sənət növləri üzrə vərdişlərin aşılanması, müvafiq kursların təşkil olunması | Il ərzində | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, yerli icra hakimiyyəti orqanları | Respublikanın iqtisadi zonalarına daxil olan şəhər və rayonlar üzrə kiçik və daha kiçik sahibkarlıq fəaliyyəti sahələrinə olan tələbatın öyrənilməsi məqsədi ilə müvafiq bazar araşdırmaları aparılmış, yekun hesabat forması çap olunaraq rayon Məşğulluq Mərkəzlərinə çatdırılmışdır. |
| 2.6. | Kənd yerlərində qadınların özünüməşğulluğunun layihələrində | Il ərzində | Əmək və Əhalinin Sosial Müdafiəsi | Azərbaycan Respublikası Prezidentinin 7 aprel 2016-cı il tarixli |

| | | | | |
|---|---|---|---|---|
| | daha aktiv iştirak etmək məqsədilə onlara zəruri məsləhət xidmətlərinin göstərilməsi | | Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, yerli icra hakimiyyəti orqanları | "Əhalinin özünüməşğulluğunun təmin olunması sahəsində əlavə tədbirlər haqqında" Sərəncamının icrası olaraq Beynəlxalq Əmək Təşkilatının metodologiyası əsasında və texniki dəstəyi ilə 130 regional təlimçilər tərəfindən keçirilən təlimlərdə iştirak edən, öz biznes-planlarını hazırlayaraq uğurla müdafiə edən respublikanın 84 rayonu (şəhəri) üzrə 1385 iştirakçı müəyyən edilmiş və hazırda onlara aktivlərin təqdim olunması prosesi davam etdirilir. Artıq 47 rayonda (856 nəfərə) iştirakçılara aktivlərin verilməsi tam icra olunmuş, 29 rayon üzrə (446 nəfər) aktivlərin verilməsi başa çatdırlır. Layihə çərçivəsində özünüməşğulluq tədbirlərində kənd yerlərində yaşayan gənclərə və qadınlara xüsusi diqqət yetirilmiş, biznes layihələrin seçimində və biznes-planların hazırlanmasında, bazarın öyrənilməsində onlara müvafiq məsləhət xidmətləri göstərilmişdir. |
| **2.7.** | Özünüməşğulluğun inkişaf etdirilməsi, ailə biznes təsərüfatının yaradılması məqsədilə işsiz qadınların və gənclərin sahibkarlığın əsasları kurslarına cəlb edilməsi | Il ərzində | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Gənclər və İdman Nazirliyi, | Özünüməşğulluğun inkişaf etdirilməsi, ailə biznes təsərrüfatının yaradılması məqsədilə 114 nəfər işsiz qadınlar və gənclər sahibkarlığın əsasları peşə kurslarına cəlb edilmişdir. |
| **2.8.** | Kənd yerlərində gənclərin və qadınların məşğulluğunun artırılması sahəsində inkişaf etmiş ölkələrin | Il ərzində | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Gənclər | 2017-ci ilin sentyabr ayından başlayaraq Azərbaycan Respublikasının Əmək və Əalinin Sosial Müdafiəsi Nazirliyi və Avropa |

| | | | | |
|---|---|---|---|---|
| | qabaqcıl təcrübəsinin öyrənilməsi | | və İdman Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | İttifaqı tərəfindən birgə “Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin yanında Dövlət Məşğulluq Xidmətinin potensialının gücləndirilməsi” Tvinning layihəsinin icrasına başlanılır. Layihənin əsas komponentlərdən biri gənclərin və qadınların, xüsuislə kənd yerlərində əmək baarına adaptasiyasının asanlaşdırılması tədbirlərinə həsr olunub. Layihə çərçivsində qeyd olunan istiqamətdə Latviya Respublikasının, Avstriyanın və İsveçin təcrübəsindən geniş istifadə olunacaq. |
| **2.9.** | Məşğul, işaxtaran və işsiz vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi, həmçinin aktiv əmək bazarı proqramlarının təkmilləşdirilməsi və səmərəliliyinin artırılması məqsədilə beynəlxalq təcrübəyə əsaslanaraq hazırlanmış “İşsizlikdən sığorta haqqında” Azərbaycan Respublikasının Qanun layihəsinin qəbul edilməsi | iyul-sentyabr | Əhalinin Sosial Müdafiəsi Nazirliyi | “İşsizlikdən sığorta haqqında” Azərbaycan Respublikasının Qanunu Milli Məclis tərəfindən qəbul edilmiş və Azərbaycan Respublikası Prezidenti tərəfindən “İşsizlikdən sığorta haqqında” Azərbaycan Respublikasının2017-ci il 30 iyun tarixli 765-VQ nömrəli Qanununun tətbiqi barədə” 2017-ci il 5 avqust tarixli 1569 nömrəli Fərmanı ilə onun tətbiqi üzrə tapşırıqların icrasına başlanılmışdır. |
| **2.10.** | İşsizlikdən sığorta sisteminin tətbiqini təmin edən yeni “Məşğulluq haqqında” Azərbaycan Respublikasının Qanun layihəsinin hazırlanması və razılaşdırılması | iyul-dekabr | Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Ədliyyə Nazirliyi, aidiyyəti orqanlar | İşsizlikdən sığorta sisteminin tətbiqini təmin etmək məqsədilə “Məşğulluq haqqında” Azərbaycan Respublikasının Qanununa dəyişikliklərin edilməsi haqqında” Azərbaycan Respublikasının Qanun layihəsi hazırlanır. |
| **2.11.** | “İşsizlikdən sığorta haqqında” və “Məşğulluq haqqında” Azərbaycan Respublikasının Qanun layihələrindən irəli gələn normativ- | ilin sonunadək | Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Ədliyyə Nazirliyi, aidiyyəti dövlət | Azərbaycan Respublikası Prezidentinin “İşsizlikdən sığorta haqqında” Azərbaycan Respublikasının 2017-ci il 30 iyun tarixli 765-VQ nömrəli Qanununun tətbiqi barədə” 2017-ci il 5 avqust tarixli 1569 nömrəli Fərmanının |

| | | | | |
|---|---|---|---|---|
| | hüquqi aktlaının layihələrinin hazırlanması və təsdiq etdirilməsi | | orqanlar | icrası olaraq müvafiq normativ-hüquqi aktların layihələrinin hazırlanması üzrə işlər apaırılır və yaxın vaxtlarda razılaşdırılmaq üçün aidiyyəti üzrə təqdim olunacaq |
| **2.12.** | İşçi qüvvəsinin keyfiyyətinin yaxşılaşdırlması məqsədilə əmək bazarının tələbatına uyğun peşə standartlarının hazırlanması və tətbiqi üzrə normativ-hüquqi bazanın hazırlanması, kənd təsərrüfatı və turizm sahəsində mövcud peşə standartlarının təkmilləşdirilməsi | II ərzində | Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Ədliyyə Nazirliyi, aidiyyəti orqanlar | İşçi qüvvəsinin keyfiyyətinin yaxşılaşdırlması məqsədilə əmək bazarının tələbatına uyğun peşə standartlarının hazırlanması və tətbiqi üzrə normativ-hüquqi bazanın hazırlanması məqəsədilə texniki dəstəyin göstərilməsi üçün Avropa İttifaqı ilə müzakirələr aparılmış və razılıq əldə edilmişdir. Qeyd olunan layihələrin hazırlanmasında Avropa Təhsil Fondunun ekspertlərinin iştirakı nəzərdə tutulur. |
| **2.13.** | Kənd yerlərində işsiz qadın və gənclərin məşğulluğunun artırılması istiqamətində Dövlət Məşğulluq Xidmətinin potensialının artırılması | noyabr-dekabr | Əhalinin Sosial Müdafiəsi Nazirliyi, beynəlxaq təşkilatlar | Avropa İttifaqı ilə birgə həyata keçirilən “Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin yanında Dövlət Məşğulluq Xidmətinin potensialının gücləndirilməsi” Tvinning layihəsi çərçivəsində Dövlət Məşğulluq Xidməti orqanlarının, xüsusilə rayonlarda kadr potensialının gücləndirilməsi, məşğulluq xidmətlərinin keyfiyyətinin yaxşılaşdırılması məqsədilə müvafiq treninqlərin (təlimlərin) keçirilməsi nəzərdə tutulur.<br>Bununla yanaşı, Azərbaycan Hökuməti ilə Beynəlxalq Əmək Təşkilatı arasında 2016-2020-ci illər üçün əməkdaşlıq prioritetlərini və çərçivəni müəyyən edən “Layiqli Əmək üzrə Ölkə Proqramı”nın əsas prioritet istiqamətlərindən biri Beynəlxalq Əmək Təşkilatı tərəfindən Dövlət Məşğulluq Xidmətinin kadr potensialının gücləndirilməsi, işçilərinin peşə, bilik və |

| | | | | |
|---|---|---|---|---|
| | | | | bacarıqlarının artırılması istiqamətində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə dəstək göstəriləcəyi oldu. Bu tədbirlər çərçivəsinə 2017-ci ilin fevral və may aylarında Dövlət Məşğulluq Xidmətinin rəhbər işçiləri və mütəxəssisləri üçün Bakı şəhərində təlim kursların təşkil edilmişdir. |
| **3. (9.3.3.3.)** | **Kənd yerlərində gənclərin və qadınların sosial müdafiəsinin gücləndirilməsi** | | | |
| **3.1.** | Əhalinin sosial xidmətlərə əlçatanlığının təmin edilməsi, sosial xidmət sahəsində "sosial iş" modelinin tətbiqi məqsədilə Nazirlik yanında Dövlət Sosial Müdafiə Fondunun yerli şöbələrinin əməkdaşlarının "sosial işin təşkili" mövzusunda təlimləndirilməsi | Il ərzində | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Azərbaycanda beynəlxalq və mütərəqqi standartlara uyğun yeni "sosial iş" modelinin tətbiqi işləri aparılır. Beləki, sosial xidmətin inkişafı istiqamətində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun yerli şöbələrində "sosial işçi" modelinin tətbiqi nəzərdə tutulmuşdur. Modeldə sosial işçilər tərəfindən sosial müdafiəyə ehtiyacı olan şəxslərə (əlillər, sağlamlıq imkanları məhdud uşaqlar, sosial təhlükəli vəziyyətdə olan yetkinlik yaşına çatmayan şəxslər,ahıllar, aztəminatlı ailələr, məişət zorakılığına məruz qalmış şəxslər, insan alverinin qurbanı olan şəxslər, penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslər və s.) ilkin sosial xidmət göstərməklə probleminin həlli istiqamətində dəqiq |

| | | | | |
|---|---|---|---|---|
| | | | | qərar qəbul edilməsi, sosial xidmətlərə əlçatanlığın təmin edilməsi, onların cəmiyyətə inteqrasiyasının bərpa edilməsi, eləcə də sosial və psixoloji ehtiyaclarının müəyyənləşdirilməsi və s. xidmətlərin göstərilməsi nəzərdə tutulmuşdur.<br>Avropa İttifaqının dəstəyi ilə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Avstrya Respublikasının aidiyyəti qurumları tərəfindən birgə icra edilən “Sosial xidmətin inkişafı” adlı Tvinninq layihəsi çərçivəsində sosial xidmət işçilərinin qabaqcıl beynəlxalq təcrübənin öyrədilməsi, onların öz iş sahələrində nəzəri və təcrübi biliklərinin artırılması məqsədilə xarici ekspertlər tərəfindən 31yanvar – 02 fevral, 28 fevral – 02 mart, 04 – 06 aprel və 18 – 20 aprel 2017-ci il tarixlərində “Məişət zorakılığı”, “Ahıllar”, “Cəza çəkməkdən azad edilmiş şəxslər” və “Ailələr və uşaqlar” mövzularında silsilə təlimlər təşkil olunmuş və 25 nəfər təlim iştirakçılarına sertifikatlar təqdim edilmişdir.<br>Bundan əlavə, layihə çərçivəsində çətin həyat şəraitində olan şəxslərin cəmiyyətə inteqrasiyasının təmin edilməsi məqsədilə hədəf qrup kimi seçilmiş məişət zorakılığının qarşısının alınması istiqamətində xarici ekspertlər |

| | | | | |
|---|---|---|---|---|
| | | | | tərəfindən nazirliyin struktur bölmələri, dövlət oqranları, vətəndaş cəmiyyəti institutları və ali təhsil müəssisələrinin müəllim və tələbə heyətinə 24 – 26 aprel 2017-ci tarixlərində Bakı, Gəncə və Sumqayıt şəhərlərində silsilə təlimlər keçirilmişdir. |